TuranBank

...Bizimlə etibarlıdır

# 2017
# İLLİK HESABAT



*Baş bəzəyi. Azərbaycan. XIX əsr.*

Azərbaycan xalqının yaratdığı zəngin, çoxşaxəli və təkrarsız mədəni dəyərlərin mühüm bir hissəsi yüksək zövqlə işlənilmiş və nəfis tərtibata malik zərgərlik nümunələridir. Qədim tarixə malik olan zərgərlik sənəti keçmiş ənənələr davam etdirilməklə, yeni forma və məzmunla zənginləşdirilməkdədir. Özünəməxsusluğu və unikallığı ilə seçilən bu zərgərlik nümunələrini yaratmaq üçün isə peşəkarlıq, yüksək dəqiqlik, yaradıcılıq tələb olunur. Məhz bu xüsusiyyətlərə malik olan komandamız Bankımızın çoxillik uğurlu fəaliyyətinin memarıdır. 2017-ci ilin yekunlarına həsr olunmuş İllik Hesabatımızı vərəqləyərkən peşəkar sənətkarların yaratdığı və özündə Azərbaycanın zərgərlik sənətinin tarixini, ənənələrini ehtiva edən sənət əsərlərindən zövq alacağınıza əminik.

# MÜNDƏRİCAT


STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR 3

BANK HAQQINDA ÜMUMİ MƏLUMAT 5

2017-Cİ İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR 9

ÖN SÖZ 12

MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU 15

KREDİTLƏŞMƏ 19

MÜŞTƏRİ XİDMƏTLƏRİ VƏ MARKETİNQ FƏALİYYƏTİ 22

KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT 24

RİSKLƏRİN İDARƏ EDİLMƏSİ 26

ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR 27

İNFORMASİYA TEXNOLOGİYALARI 29

İNSAN RESURSLARI 30

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ 32

XƏZİNƏDARLIQ FƏALİYYƏTİ 33

AUDİTOR RƏYİ 34



*Sinəbənd. Azərbaycan.*
*XIX əsr.*

# STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR

## Strateji Baxışımız

TuranBankı Respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi vasitəsi ilə bütün ölkə üzrə əhali, mikro, kiçik və orta sahibkarlığa xidmət göstərən, xarici investisiyalı pərakəndəyönümlü universal bank etmək.

## Missiyamız

TuranBank inkişaf edən peşəkar komandası ilə müştərilərinə beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli xidmət göstərən, cəmiyyətin sosial həyatında aktiv iştirak edən, investorlarının investisiyalarının dəyərinin artımını təmin edərək dinamik inkişaf edən etibarlı və şəffaf bankdır.

### 1. İnvestorlara münasibətdə

Bank əldə edilən mənfəətin bir hissəsini reinvestisiya etməyi hədəfləyir. Bundan əlavə, Bank həm bazar payının, həm aktivlərinin keyfiyyətinin, həm də korporativ dəyərlərinin reallaşması nəticəsində imicinin artması hesabına səhmlərinin real dəyərinin davamlı artmasına nail olacaqdır. Bu, mövcud səhmdarların Banka investisiyalarının artırılmasını stimullaşdırmaqla yanaşı, Bankı digər investorlar üçün cəlbedici edəcək və xarici investisiyanın kapitalda xüsusi çəkisinin artımına səbəb olacaqdır.

### 2. İşçiyə münasibətdə

Bank işçi heyətini daima diqqətdə saxlayacaq, onlara daimi və məqsədli investisiyalar qoyacaq, karyera inkişafını təmin edəcək, öz potensiallarının reallaşması üçün yuxarıdan aşağı səlahiyyət bölgüsünü təkmilləşdirəcək və nəticəyə əsaslanan motivasiya sistemlərinin tətbiq dairəsini genişləndirəcəkdir.

### 3. Müştəriyə münasibətdə

Bank işçi heyətinə və informasiya texnologiyalarına qoyulan investisiyaların nəticəsi olaraq, müştərilərinə daha peşəkar, keyfiyyətli və operativ xidmət göstərəcək, hər bir müştəri qrupuna xüsusi xidmətlər paketi hazırlayacaqdır

## Dəyərlərimiz

- Bütövlük (maraqların qorunması, səmimiyyət, dürüstlük, dəqiqlik, məsuliyyətlilik, obyektivlik, ardıcıllıq)
- Şəffaflıq
- Daimi inkişaf
- Müştəriyə yönlənmə
- Etibarlılıq
- Nəticəyə yönlənmə
- İşçiyə ən qiymətli kapital kimi dəyər vermək
- Cəmiyyət qarşısında korporativ sosial məsuliyyət



*Toqqa. Azərbaycan. XX əsr.*

# BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

**Bankın tam adı:** TuranBank Açıq Səhmdar Cəmiyyəti
**Bankın qısa adı:** TuranBank ASC
**Yaranma Tarixi:** 12 iyun 1992
**Hüquqi Ünvanı:** AZ1073, İsmayıl bəy Qutqaşınlı küç.,85, Bakı şəh., Azərbaycan Respublikası
**Kod:** 507462
**VÖEN:** 1300016391
Azərbaycan Mərkəzi Bankında
**Müxbir Hesab:** AZ26NABZ01350100000000027944
**SWIFT:** TURAAZ22
**Call Centre:** +994 (12) 935
**Telefonlar:** +994 (12) 510 79 11, 510 79 22
**Faks:** +994 (12) 497 25 77
**E-mail:** office@turanbank.az
**Web:** www.turanbank.az
**Facebook:** www.facebook.com/turanbankasc
**Instagram:** www.instagram.com/turanbank

**LİSENZİYA**

TuranBank Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş (hazırkı Mərkəzi Bank) 30.12.1992-ci tarixli 115 N-li lisenziya və bankın təşkilati hüquqi formasının dəyişməsi ilə əlaqədar 23.03.2005-ci il tarixdə yenilənmiş 115 N-li lisenziya əsasında fəaliyyət göstərir.

## PEŞƏKAR ASSOSİASİYALARDA, BİRLİKLƏRDƏ, BİRJALARDA VƏ ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ ÜZVLÜK

- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK)
- Azərbaycan Banklar Assosiasiyası (ABA)
- Azərbaycan Mikro-Maliyyə Assosiasiyası (AMA)
- Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)
- Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA)
- Alman-Azərbaycan Xarici Ticarət Palatası (DAA)
- Amerika-Azərbaycan Ticarət Palatası (AMCHAM)
- Beynəlxalq Banklararası Maliyyə Telekomunikasiya Birliyi (SWIFT)
- SAXO Bank – ticarət platforması
- MasterCard Beynəlxalq Ödəniş sistemi
- Western Union Beynəlxalq Ödəniş sistemi
- Zolotaya Korona MDB ölkələri üzrə ödəniş sistemi
- IBA-Express MDB ölkələri üzrə ödəniş sistemi
- Monex respublikadaxili pul köçürmə sistemi

## 2017-ci ilin sonuna Əsas Göstəricilər (mln. AZN)

| *Göstəricilər* | *2013* | *2014* | *2015* | *2016* | ***2017*** |
|---|---|---|---|---|---|
| Aktivlər | 244,3 | 316,9 | 517,7 | 508,3 | **456,4** |
| Kredit Portfeli | 177,6 | 218,2 | 280,8 | 272,8 | **258,3** |
| Əmanət Portfeli | 108,2 | 143,8 | 246,9 | 274,6 | **224** |
| Müddətli Əmanətlər | 76 | 89,1 | 149,2 | 142,0 | **132,9** |
| Məcmu Kapital | 50,5 | 55,4 | 53,3 | 54,9 | **53,8** |
| Səhmdar Kapitalı | 44 | 47 | 50 | 55 | **55** |
| Gəlir | 27,9 | 33,2 | 39,5 | 37,1 | **34,2** |
| Xərc | 23,1 | 26,2 | 40,8 | 50,4 | **35,4** |
| Mənfəət | 4,8 | 7 | -1,13 | -13,3 | **-1,2** |

## Səhmdarlarımız

| *Göstəricilər* | *2013* | *2014* | *2015* | *2016* | ***2017*** |
|---|---|---|---|---|---|
| Səhmdarların ümumi sayı, o cümlədən: | 28 | 27 | 27 | 27 | **27** |
| hüquqi şəxslər | 6 | 6 | 6 | 6 | **6** |
| fiziki şəxslər, o cümlədən: | 22 | 21 | 21 | 21 | **21** |
| bankın işçiləri | 4 | 4 | 4 | 5 | **5** |
| Səhmdarların nizamnamə kapitalında payı (%), o cümlədən: | | | | | |
| hüquqi şəxslər, o cümlədən: | 29,11 | 22,2 | 29,2 | 28,4 | **28,4** |
| qeyri-rezident hüquqi şəxslər | 7,4 | 7 | 7 | 6,34 | **6,34** |
| fiziki şəxslər, o cümlədən: | 70,89 | 77,8 | 70,8 | 71,6 | **71,6** |
| bankın işçiləri | 17,98 | 18,2 | 18,2 | 18,7 | **18,7** |
| Səhmdarlarımıza ödədiyimiz dividend | 11% | 12,3% | – | – | – |

## İşçilərimiz

| *Göstəricilər* | *2013* | *2014* | *2015* | *2016* | ***2017*** |
|---|---|---|---|---|---|
| İşçilərimizin ümumi sayı, o cümlədən: | 372 | 464 | 476 | 403 | **384** |
| baş ofis | 129 | 157 | 177 | 183 | **184** |
| filiallar | 211 | 277 | 272 | 220 | **200** |
| mübadilə şöbələri | 32 | 30 | 27 | 0 | **0** |

## Xidmət Şəbəkəmiz

| *Göstəricilər* | *2013* | *2014* | *2015* | *2016* | ***2017*** |
|---|---|---|---|---|---|
| Filialların sayı, o cümlədən: | 12 | 13 | 14 | 14 | **14** |
| Bakı şəhərində | 6 | 6 | 6 | 6 | **6** |
| regionlarda | 6 | 7 | 8 | 8 | **8** |
| Şöbələrin sayı, o cümlədən: | 1 | 1 | 1 | 1 | **1** |
| Bakı şəhərində | | | | | |
| regionlarda | 1 | 1 | 1 | 1 | **1** |
| Bankomatların sayı, o cümlədən: | 21 | 22 | 26 | 28 | **29** |
| Bakı şəhərində | 13 | 13 | 16 | 18 | **19** |
| regionlarda | 8 | 9 | 10 | 10 | **10** |
| POS-terminalların sayı, o cümlədən: | 210 | 162 | 159 | 158 | **169** |
| Bakı şəhərində | 186 | 135 | 132 | 131 | **142** |
| regionlarda | 24 | 27 | 27 | 27 | **27** |
| Törəmə qurumlarımız | 1 | 1 | 1 | 1 | **1** |

## Kapital İnvestisiyalarımız

| *Göstəricilər* | *2013* | *2014* | *2015* | *2016* | ***2017*** |
|---|---|---|---|---|---|
| Azər-TürkBank ASC | 4 | – | – | – | **–** |
| Başak İnam Sığorta Şirkəti | 8,33% | 8,33% | 8,33% | 8,33% | **8,33%** |
| Milli Kart MMC Prossesinq Mərkəzi | 2,4 | 2,4 | 2,4 | 2,4 | **2,4** |
| TuranLizinq MMC | 100% | 100% | 100% | 100% | **100%** |

**Beynəlxalq Auditorlarımız:** Baker Tilly Azerbaijan, KPMG, Deloitte & Touche və PriceWaterHouseCoopers



*Kəmər. Zaqatala, Azərbaycan.*
*XX əsrin əvvəli.*

# 2017-ci il üzrə Əlamətdar Hadisələr

- Bank fəaliyyətinin 25 illiyini qeyd etmiş və bu tarixə həsr olunmuş möhtəşəm "Yubiley Fürsəti" adlı əmanət kampaniyası keçirmişdir;
- Bank Rusiyanın TransKapital Bankında müxbir hesabı açmaqla özünün müxbir əlaqələr şəbəkəsini genişləndirmişdir;
- Bank "Sparkassenstiftung für Internationale Kooperation" fondu ilə əməkdaşlığa başlamış və "Məsuliyyətli kreditləşmə" layihəsi çərçivəsində Bankın menecmenti və mütəxəssisləri üçün Risklərin idarəedilməsi mövzusunda seminar keçirmişdir;
- Bank və Beynəlxalq Maliyyə Korporasiyasının imzaladığı "Project Services Agreement" adlı müqavilə çərçivəsində "Maliyyə savadlılığı" layihəsinin icrasına başlanılmışdır;
- Bank "Korporativ sosial məsuliyyət" və "Ən fəal maliyyə savablığı dəstəkçisi" nominasiyaları üzrə Azərbaycan Banklar Assosiasiyasının mükafatlarına layiq görülmüşdür;
- 2017-ci maliyyə ilinin kənar audit hesabatının hazırlanması üzrə Baker Tilly Azerbaijan şirkəti ilə saziş imzalanmışdır;
- Bank "Bu şəhərdə"nin konsertlərinə baş sponsorluq etmişdir;

Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Novruz bayramı, "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü", eləcə də Ramazan və Qurban bayramı münasibətilə uşaq evinə ziyarət və uşaqlar üçün teatr tamaşasının nümayişinin təşkili, eyni zamanda, uşaqlara hədiyyə paylanması və ərzaq yardımının edilməsi;
- Azərbaycan Diplomatik Akademiyası və Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən təşkil olunan əmək yarmarkalarında iştirak;
- Mərkəzi Bankın "Maliyyə Savadlılığı: Peşəkar karyeraya aparan yol" layihəsi çərçivəsində BDU, ADİU, ADNSU, ADU, ATU-da təhsil alan tələbələr üçün seminarın keçirilməsi;
- Regional idman mərkəzlərindən sayılan Göyəzən Futbol Klubuna, Göyəzən Güləş Məktəbinə və Ümummilli Lider Heydər Əliyevin 94 illik Yubileyi münasibətilə Qazax şəhərində keçirilmiş yeniyetmələrarası açıq güləş turnirinə sponsorluq;
- Bankın əməkdaşları arasında şahmat turnirinin təşkili;
- Azərbaycan Talassemiya Federasiyasının təşkilatçılığı ilə Bank əməkdaşlarının ənənəvi qanvermə aksiyasının təşkili;

# MÜŞAHİDƏ ŞURASI



**Fuad Musayev**
Müşahidə Şurasının sədri



**Gunter Eckel**
Müşahidə Şurasının üzvü



**Nazim Sadıqov**
Müşahidə Şurasının üzvü



**Akif Kərimov**
Müşahidə Şurasının üzvü



**Ramiz Qasımov**
Müşahidə Şurasının üzvü

# AUDİT KOMİTƏSİ



**Davud Quliyev**
Audit Komitəsinin üzvü



**Çingiz Ağayev**
Audit Komitəsinin sədri



**Famil Nəbiyev**
Audit Komitəsinin üzvü

# İDARƏ HEYƏTİ



**Rauf Kazımov**
İdarə Heyətinin sədri



**Fəzail Musayev**
İdarə Heyəti sədrinin 1-ci müavini



**Məhəmməd Kələşov**
İdarə Heyətinin sədr müavini



**Orxan Qarayev**
İdarə Heyətinin üzvü



**Kəmalə Mustafayeva**
İdarə Heyətinin üzvü

## BAŞ DİREKTORLAR



**Emil Mürsəlov**
Satış üzrə baş direktor



**Bəxtiyar Məmmədov**
İT üzrə baş direktor

# ÖN SÖZ

## Hörmətli Xanımlar və Cənablar!

Böyük məmnunluq hissi ilə Sizlərə Bankın 2017-ci ilin yekunlarına həsr olunmuş illik hesabatını təqdim edirik. Bu hesabatda diqqətinizi geridə qalan dövrdə Bankın fəaliyyətindəki müsbət nəticələrə, strateji hədəflərimizin icrasında əldə etdiyimiz uğurlara, istifadəyə verdiyimiz yeni məhsul və xidmətlərimizə cəlb etmək istərdim.

Ötən illərin hesabatlarından fərqli olaraq hazırkı hesabat Bankımız üçün əlamətdar dövrü əhatə edir. Belə ki, hesabat ilində Bankımız fəaliyyətinin 25 illiyini qeyd etmişdir. Müstəqil Azərbaycanın ilk yaranan banklarından biri olan TuranBank ötən 25 il ərzində əhali və təsərrüfat subyektlərini yüksək keyfiyyətli bank xidmətləri ilə təmin etmiş, həyata keçirdiyi layihələri ilə ölkə iqtisadiyyatının inkişafına dəstək verməklə "Bizimlə etibarlıdır!" şüarına sadiq qalmışdır.

Eenerji daşıyıcılarının qiymətlərində baş vermiş kəskin eniş və qlobal maliyyə böhranının fəsadları ölkədə investisiya qoyuluşları və kreditlərin cəlb edilməsi imkanlarını məhdudlaşdırmış, milli valyutanın kəskin devalvasiyasına gətirmişdir ki, bu da müvafiq olaraq yüksək inflyasiyaya və real gəlirlərin azalmasına səbəb olmuşdur. Böhranın fəsadlarının aradan qaldırılması istiqamətində prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş və çevik iqtisadi siyasət, dərin islahatlar müsbət nəticə vermiş və artıq hesabat ilində ölkə iqtisadiyyatında artım müşahidə olunmuşdur. Belə ki, 2017-ci ildə ÜDM real ifadədə 0,1% artaraq cari qiymətlərlə 70,1 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 7205 manat təşkil etmişdir.

Hesabat ilində ölkədə sahibkarlığın inkişafı istiqamətində səylər gücləndirilmiş, iqtisadiyyatın diversifikasiyası və regionların sosial-iqtisadi inkişafı istiqamətində kompleks tədbirlər görülmüşdür. Bütün bunların nəticəsində 2017-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunda yaradılan dəyərin həcmi 2016-cı illə müqayisədə 4086,1 milyon manat artaraq 44061,9 milyon manata çatmışdır. Qeyd edim ki, 2016-cı ilə nisbətən 2017-ci ildə qeyri-neft sənayesi 3,8%, rabitə sahəsi 6,6%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi 5,9%, ticarət sahəsi 2,5%, kənd təsərrüfatı 4,2%, nəqliyyat və anbar təsərrüfatı 8,5% artmışdır.

2017-ci ildə ölkənin bank sektorunun sağlamlaşdırılmasında əldə olunan uğurlar, hökumətin həyata keçirdiyi effektiv tədbirlər, bankların institusional inkişafı istiqamətində görülən işlər öz müsbət nəticəsini vermiş və artıq TuranBank da daxil olmaqla yerli bankların gələcək inkişafı üçün zəmin yaradılmışdır.

Hesabat ilində Bankın aktivləri 456,4 milyon manat, kredit portfeli 258,3 milyon manat, müştərilər üzrə depozit portfeli isə 224 milyon manat təşkil etmişdir. 2017-ci ilin sonuna Bankın nizamnamə kapitalı 55 milyon manata, məcmu kapitalı isə 53,8 milyon manata bərabər olmuşdur.

Hesabat dövründə Bankımız real sektora, o cümlədən kiçik və orta sahibkarlara manatda güzəştli maliyyə vəsaitləri ayırmaqla onlara dəstək olmuş, müştərilərin müxtəlif məhsul və xidmətlərə olan tələblərini qarşılamaq kimi vacib vəzifələri icra etmişdir. Belə ki, 2017-ci ildə Bankın Sahibkarlığa Kömək Milli Fondu (SKMF) ilə birgə həyata keçirdiyi sahibkarlığın inkişafını dəstəkləyən layihə çərçivəsində 192 sahibkara 5,4 milyon manat, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti və Dünya Bankı ilə birgə icra olunan "Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi" üzrə 10 sahibkara 1,5 milyon manat həcmində vəsait ayrılmışdır. Ümumilikdə Bank SKMF ilə sıx əməkdaşlığı çərçivəsində indiyədək ölkənin müxtəlif regionlarında olan 1627 sahibkara 60 milyon manat, "Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi"

çərçivəsində isə 910 təsərrüfat subyektinə 23,7 milyon manat həcmində güzəştli kredit vermişdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin, Gənclər siyasəti haqqında Azərbaycan Respublikası qanununun və "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın hədəflərini dəstəkləyən TuranBank, hesabat ilində sahibkarlıq üzrə fəaliyyətə yeni başlamış və şəxsi biznesini inkişaf etdirmək istəyən ölkə vətəndaşlarına maliyyə dəstəyi və konsaltinq xidmətlərini təqdim etmişdir. Belə ki, Bankımız 2017-ci ildə mikro, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədi ilə yeni «Gənc sahibkar» və «Sahibkar xanım» biznes kredit məhsullarını hazırlayaraq müştərilərə təqdim etmişdir. İnanırıq ki, bu məhsullar ölkədə gənclərin və xanımların iqtisadi fəallığının artırılması, onların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi istiqamətində dövlət siyasətinə əhəmiyyətli töhfə olacaqdır.

Bank davamlı maliyyə vasitəçiliyi potensialını artırmaq, həmçinin fəaliyyət göstərdiyimiz sahələrdə yüksək keyfiyyətli xidməti təşkil etmək, maliyyələşdirdiyimiz sahələrdə riskləri azaltmaq, müştərilərə daha əlverişli həll yollarını təklif etmək və onlara fəaliyyətlərində dəstək olmaq üçün müxtəlif beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq əlaqələrini də genişləndirməkdədir.

Qeyd edim ki, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq həm ölkə iqtisadiyyatına ucuz maliyyə vəsaitləri cəlb etməyə, həm də həmin qurumların çoxillik qabaqcıl təcrübələrindən yararlanaraq fəaliyyətimizi təkmilləşdirməyə imkan verdiyindən bizim üçün böyük önəm daşıyır. Hesabat ilində TuranBank Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB), World Business Capital, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD), Eco Ticarət və İnkişaf Bankı, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID), BCP, Sparkassenstiftung fondu və s. kimi nüfuzlu beynəlxalq maliyyə institutları ilə birgə layihələrdə əməkdaşlığı davam etdirmişdir.

Hazırda internet və mobil rabitədən istifadənin genişlənməsi ənənəvi bank xidmətlərinin alternativ kanallarla və yeni bazar iştirakçıları tərəfindən daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırmışdır. Hesabat ilində Bankımız inkişaf planlarının reallaşdırılmasına dəstək vermək, müştərilərə göstərilən xidmət səviyyəsini yüksəltmək və effektivliyi artırmaq məqsədi ilə yeni avtomatlaşdırılmış bank sisteminin tətbiqi ilə bağlı hazırlıq işlərini intensivləşdirmişdir. Belə ki, növbəti il ərzində internet bank və yenilənmiş mobil bank xidmətlərinin müştərilərin istifadəsinə verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər müştərilərə bütün qeyri-nağd əməliyyatlarını, o cümlədən depozit, kredit, pul köçürmələri ilə bağlı bütün işlərini banka gəlmədən asanlıqla həyata keçirə bilməsi üçün şərait yaradacaqdır. Avtomatlaşdırılmış bank sisteminin yenilənməsi xidmət keyfiyyətinin daha da yüksəldilməsini, əməliyyatların maya dəyərini azaltmaqla müştərilərə daha sərfəli qiymətlərlə xidmətlərin göstərilməsini təmin edəcəkdir.

Hər zaman müştəri məmnunluğuna önəm verən Bankımız hesabat dövründə depozit müştərilərini özünün 25 illik yubileyinə həsr olunmuş möhtəşəm "Yubiley Fürsəti" adlı kampaniya ilə də sevindirmişdir. Kampaniyanın qalibləri olmuş müştərilərimiz Toyota Camry avtomobili ilə yanaşı, Yunanıstan və Türkiyəyə 2 nəfərlik səyahət paketi, televizor, noutbuk, planşet, mobil telefon, fotokamera kimi çox sayda qiymətli uduşlara sahib olmuşlar.

Hesabat ilində kart müştərilərimiz tərəfdaşımız olan MasterCardın müxtəlif endirim kampaniyalarının iştirakçısı olmuşlar. Kart müştərilərimizə təklif etdiyimiz CashBack xidməti isə onlara Bankın partnyorlar şəbəkəsinə daxil olan müxtəlif ticarət və iaşə obyektlərində TuranBank kartları ilə alış-veriş etdikdə ödədikləri vəsaitin bir hissəsini kartlarına geri almaq imkanı qazandırır.

Bank hesabat dövründə özünün kadr potensialını təkmilləşdirmək istiqamətində layihələr gerçəkləşdirmiş, əməkdaşların bilik və bacarıqlarının artırılması üçün Bankın Tədris Mərkəzinin təlimçiləri tərəfindən satış nöqtələrində çoxlu sayda müxtəlif təlimlər keçirilmişdir.

TuranBankın uğurlu fəaliyyəti hesabat ilində də yüksək qiymətləndirilmiş və Bank Azərbaycan Banklar Assosiasiyası tərəfindən "Korporativ sosial məsuliyyət" və "Ən fəal maliyyə savadlığı dəstəkçisi" nominasiyaları üzrə mükafatlandırılmışdır. Hesabat ilində aktivlərin sağlamlaşdırılması, Bankın institusional inkişafı istiqamətində qarşımıza qoyduğumuz məqsədlərə çatmaq üçün atılan addımlar, yeni məhsul və xidmətlərin tətbiqi Bankımızın gələcək inkişafı və onun bazar mövqeyinin möhkəmlənməsi üçün zəmin yaratmışdır. TuranBank qarşıdan gələn illərdə özünün dayanıqlılığını təmin etməyi, müştəriləri məmnun edən yeni bank məhsullarını və innovativ texnologiyaları tətbiq etməyi, yüksək səviyyəli xidmətlər təklif etməklə etibarlı bank fəaliyyətini davam etdirməyi planlaşdırır.

Sonda əməkdaşlarımıza peşəkar və fədakar əməklərinə, müştərilərimizə və tərəfdaşlarımıza etimad və loyallığa, səhmdarlarımıza göstərdikləri dəstəyə görə öz təşəkkürümü bildirmək istərdim. Əminəm ki, TuranBank ona göstərilən etimadın əsaslı olduğunu sübut edəcək və müştərilərin etibarlı tərəfdaşı imicini bundan sonra da qoruyub saxlayacaqdır.

*Fuad Musayev*

*TuranBank ASC-nin Müşahidə Şurasının sədri*



***Sinəbənd "Qarabatdaq". Naxçıvan, Azərbaycan. XIX əsr.***

# MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU

Ölkə iqtisadiyyatının 2017-ci ilin sonuna olan yekunları neftin qiymətində baş vermiş kəskin enişdən sonra respublikamızda ardıcıl olaraq həyata keçirilən və əsas hədəfi qeyri-neft sektorunun inkişafı olan uzaqgörən iqtisadi islahatların uğur qazandığından xəbər verir. Belə ki, məhz hesabat ilində Azərbaycanın əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsulda (ÜDM) artım müşahidə olunmuş və ən vacibi isə əsas artımın qeyri-neft sektorunun payına düşməsi olmuşdur.

Hesabat ilində ölkədə ÜDM real ifadədə əvvəlki illə müqayisədə 0,1% artaraq 70135,1 milyon manata çatmışdır. Ümumi daxili məhsulun 62,8%-i iqtisadiyyatın qeyri-neft, 37,2%-i isə neft-qaz sektorunda əldə edilmişdir.

Bu dövrdə iqtisadiyyatın neft sektorunda istehsal olunmuş ÜDM 5% azalmış, qeyri-neft sektorunda isə 2,7%, o cümlədən nəqliyyat və anbar təsərrüfatı sahələrində 8,5%, informasiya və rabitə sahələrində 6,6%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 5,9%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 4,2%, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 2,5%, sosial və digər xidmət sahələrində 1,5% artmışdır. Eyni zamanda, qeyri-neft sənayesində məhsul istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7%, bu sahədə yaradılmış ÜDM isə 3,8% artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM 7205 manata bərabər olmuşdur.

Hesabat ilində ÜDM istehsalının 40,1%-i sənayenin, 10,4%-i ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinin, 9,5%-i tikintinin, 6,8%-i nəqliyyat və anbar təsərrüfatı, 5,6%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6%-i informasiya və rabitə sahələrinin, 16,4%-i isə digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,3%-ini təşkil etmişdir.

2017-ci ildə istehsal olunmuş ÜDM-in strukturu, %



Hesabat ilində sahibkarlığa əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyatın inkişafı, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində yürüdülən iqtisadi siyasət, həyata keçirilən tədbirlər rəqabət prinsiplərinə əsaslanan biznes mühiti formalaşdırmış və bununla da ölkənin investisiya cəlbediciliyini artırmışdır. Bütün bunlar son nəticədə beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşmasına səbəb olmuşdur. Belə ki, Dünya İqtisadi Forumunun dünya ölkələrinin rəqabətqabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 2017-2018 hesabatında Azərbaycan 140 ölkə arasında əvvəlki illə müqayisədə 2 pillə irəliləyərək 35-ci yerdə qərarlaşmışdır.

Bundan əlavə, digər nüfuzlu reytinqdə - Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2018" hesabatında Azərbaycan hesabat ilində 8 pillə irəliləyərək 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəlmiş, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri olmuşdur.

Respublikanın beynəlxalq aləmdə müsbət imici hesabat ilində də ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının artmasına təkan vermişdir. Belə ki, 2017-ci ildə ölkə iqtisadiyyatına qoyulan sərmayənin həcmi 2016-cı illə müqayisədə 2,9 milyard ABŞ dolları artaraq 14,6 milyard ABŞ dolları təşkil etmişdir. Neftin qiymətinin 3,4 dəfə düşməsi ilə dövlətin gəlirlərinin azalması və dünyada hələ də davam edən maliyyə böhranı fonunda iqtisadiyyata yönəldilmiş bu məbləğ ölkəmizdə münbit sərmayə iqliminin mövcud olduğunu deməyə əsas verir.

Hesabat ilində ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 8,3% artaraq 49162,9 milyon manata çatmışdır. Əhalinin hər nəfərinə düşən gəlirlər 5050,5 manat və ya ayda orta hesabla 420,9 manat təşkil etmişdir. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 44983,3 milyon manatlıq vəsait qalmışdır.

Bundan əlavə, 2017-ci ildə iqtisadi fəallığın artması son nəticədə ölkədə 177 mini daimi olmaqla 221 min yeni iş yerinin açılmasına şərait yaratmışdır.

Hesabat ilində makroiqtisadi sabitlik və dayanıqlığı təmin edən davamlı stabilləşdirmə tədbirləri ölkənin strateji valyuta ehtiyatlarının artmasına şərait yaratmışdır. Strateji ehtiyatlar 2016-cı ilə nəzərən 4,2 milyard ABŞ dolları artaraq hesabat ilinin sonuna 42 milyard ABŞ dolları təşkil etmişdir.

2017-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15550,8 milyon manat vəsait yönəldilmişdir.

2017-ci ilin yanvar-dekabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,9% bahalaşmışdır.

Hesabat ilində dövlət büdcəsinin gəlirləri 16446,9 milyon manat, xərcləri 17588,4 milyon manat təşkil etmiş, büdcənin icrasında 1141,5 milyon manatlıq və ya ümumi daxili məhsulun 1,6%-i qədər kəsir yaranmışdır.

Hesabat ilində Azərbaycan Respublikasının 187 ölkə ilə həyata keçirdiyi xarici ticarət dövriyyəsinin həcmi 24257,6 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 15475,6 milyon ABŞ dolları, idxalın dəyəri 8782 milyon ABŞ dolları təşkil etmiş, nəticədə 6693,6 milyon ABŞ dolları məbləğində müsbət ticarət saldosu yaranmışdır.

Qlobal iqtisadiyyatda baş verən proseslər region ölkələrində olduğu kimi Azərbaycanda da ən çox bank sektoruna təsir göstərmişdir. Son illərdə həyata keçirilən davamlı stabilləşdirmə tədbirləri nəticəsində hesabat ilində ölkədə makroiqtisadi sabitlik və dayanıqlıq əldə olunmuş, bu da öz növbəsində ölkənin valyuta ehtiyatlarına təzyiqi azaltmış, milli valyutanın dəyərinin sabitləşməsinə və inflyasiya gözləntilərinin nisbətən səngiməsinə gətirib çıxarmışdır.

Mərkəzi Bankın valyuta ehtiyatları isə 34% artaraq hesabat ilinin sonuna 5334,6 milyon ABŞ dolları təşkil etmişdir. 2016-cı ilin sonuna valyuta ehtiyatları 3974,4 milyon ABŞ dolları olmuşdur.

Hesabat ilinin sonuna ümumilikdə ölkədə 30 bank fəaliyyət göstərmişdir. Bu maliyyə təşkilatlarından 28-i özəl, 2-i dövlət bankı olmuşdur.

Ümumilikdə hesabat ilində əvvəlki illərdə baş vermiş devalvasiyalardan sonra maliyyə təşkilatları öz imkanlarını bərpa edərək yenidən aktiv kreditləşməyə başlamışlar. Bu da öz əksini bankların maliyyə göstəricilərində tapmışdır. Hesabat ilinin sonuna 30 bankın xalis mənfəəti 883,6 milyon manat təşkil etmişdir.

Hesabat ilində bankların cəmi aktivləri 27921 milyon manat, cəmi öhdəlikləri isə 24211,8 milyon manat təşkil etmişdir. Qeyd edək ki, bank sektorunun məcmu aktivləri 2017-ci ildə 2016-cı ilə nisbətən (31439,5 milyon manat) 3518,5 milyon manat və yaxud 11,2% azalmışdır.

**İqtisadiyyata kredit qoyuluşları və bank sektorunun aktivləri, mlrd. AZN**




Bankların aktivlərinin 11757,8 milyon manatını kredit qoyuluşları təşkil etmişdir. Kreditlərin 16,3%-i dövlət bankları, 80,1%-i özəl banklar, 3,6%-i isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 13,8%-ni təşkil etmişdir.

Statistik məlumatlar göstərir ki, hesabat ilində kredit qoyuluşlarının 6953,6 milyon manatı milli valyutada, 4804,2 milyon manatı isə xarici valyutada həyata keçirilmişdir.

Həm milli, həm də xarici valyutada iqtisadiyyata yönləndirilən kreditlərin əsas hissəsini - 9656,5 milyon manatını (82,1%) uzunmüddətli kreditlər təşkil etmişdir. Hesabat ilində real sektora istiqamətləndirilən kreditlərin 39,2%-i ev təsərrüfatlarına, 17,6%-i ticarət və xidmət sahələrinə, 4,6%-i inşaat və əmlak sahəsinə, 5,3%-i sənaye və istehsala, 9,6%-i nəqliyyat və rabitə sahələrinə, 2,7%-i energetika, kimya və təbii ehtiyatlar sahələrinə, 3,7%-i kənd təsərrüfatı və emal sahələrinə, 17,3%-i isə digər sahələrə ayrılmışdır.

**Kredit qoyuluşlarının sahələr üzrə strukturu,%**



Hesabat ilində sektorun cəmi kapitalı 2016-cı illə (1908,8 milyon manat) müqayisədə 1,9 dəfə (1800,4 milyon manat) artaraq 3709,2 milyon manat təşkil etmişdir.

Hesabat ilində Azərbaycan banklarında yerləşdirilən depozitlərin məbləği 16895 milyon manat təşkil etmişdir. 2016-cı illə müqayisədə (16410 milyon manat) banklar tərəfindən cəlb olunan depozitlərin məbləği 2017-ci ildə 485 milyon manat artmışdır.

Hesabat ilində əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 7561,2 milyon manat təşkil etmişdir. Bu məbləğin 33,5%-i milli valyutada, 66,5%-i xarici valyutada olmuşdur. Milli valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin müvafiq dövrünə nisbətən 66,9%, bu əmanətlərin əhali tərəfindən banklara qoyulmuş vəsaitlərin ümumi məbləğində xüsusi çəkisi isə il ərzində 20,4%-dən 33,5%-dək artmışdır. Xarici valyutada olan əmanətlər 2016-cı illə müqayisədə 15,2% azalmışdır.

Hesabat dövrünə bankların filiallarının sayı 509 (2016-cı ildə 569), şöbələrinin sayı 142 (2016-cı ildə 131), ATM-lərin sayı 2431 (2016-cı ildə 2461) olmuşdur. Bütövlükdə, bank sektorunun işçi heyəti 16171 nəfər təşkil etmişdir. Hesabat ilində 2016-cı ilə nisbətən (16947 nəfər) bank sektorunda çalışanların sayı 776 nəfər azalmışdır. 2017-ci ildə sürətli pul köçürmə sistemləri vasitəsilə həyata keçirilən əməliyyatların ümumi məbləği 223,5 milyon manat təşkil etmişdir ki, bu da 2016-cı illə müqayisədə (207,1 milyon manat) 16,4 milyon manat çox olmuşdur.

Hesabat ilində dövriyyədə olan ödəniş kartlarının sayı 5800 min ədəd təşkil etmişdir ki, bunların da 5177 min ədədi debet kartları, 623 min ədədi isə kredit kartlarının payına düşmüşdür. Bu dövr ərzində ödəniş kartları ilə həyata keçirilən əməliyyatların ümumi həcmi 1546 milyon manat təşkil etmişdir.



*Sırğa "piyaləzəng". Azərbaycan.*
*XIX əsrin sonu – XX əsrin əvvəli.*

# KREDİTLƏŞMƏ

Hesabat ili TuranBank da daxil olmaqla ölkə banklarının kreditləşmə fəaliyyətində baş verən canlanma ilə yadda qaldı. Bank hesabat ilində ölkədə bərqərar olmuş maliyyə sabitliyindən yararlanaraq istehlak, mikro və biznes istiqamətində kreditləşmə fəaliyyətini aktiv şəkildə davam etdirmişdir. Bununla yanaşı, Bank ötən illərdə olduğu kimi hesabat ilində də kredit portfelinin istər iqtisadi sektorlar, istər hədəf qrupları, istərsə də coğrafi istiqamət üzrə balanslaşdırılmış diversifikasiyasını aparmışdır. Kreditləşmə fəaliyyətinin coğrafiyasının genişləndirilməsinin əsas məqsədlərindən biri Bankın kommersiya maraqları ilə yanaşı regional səviyyədə dövlətin sosial-iqtisadi proqramlarının dəstəklənməsi, eləcə də maliyyə resurslarına çıxışı məhdud əhali təbəqəsinin maddi ehtiyaclarının təmin edilməsi olmuşdur.

Hesabat ilində öz fəaliyyətini məsuliyyətli kreditləşmə prinsipi üzərində quran Bankın kredit portfelinin həcmi 258,3 milyon manat təşkil etmişdir. Kredit portfeli iri korporativ, kiçik və orta sahibkarlıq, mikrokreditlərə və fiziki şəxslərə verilmiş istehlak kreditlərinə bölünmüşdür. Kreditlərin 119,9 milyon manatını (46,4%) korporativ kreditlər, 72,3 milyon manatını (28,0 %) kiçik və orta biznes kreditləri, 6,6 milyon manatını (2,55%) mikrokreditlər, 59,5 milyon manatını (23,05%) isə fiziki şəxslərə verilmiş istehlak kreditləri təşkil etmişdir.

Kredit portfelinin məhsullar üzrə bölgüsü




Kredit portfelinin 32%-i (93,501 milyon manat) ticarət və xidmət, 22%-i (63,143 milyon manat) fiziki şəxslərə verilmiş istehlak kreditlərinin, 17%-i (50,239 milyon manat) tikinti, 16%-i (45,792 milyon manat) kənd təsərrüfatı, 12%-i (35,387 milyon manat) istehsal və 1%-i (2,424 milyon manat) digər sahələrin payına düşmüşdür.




TuranBank hesabat ili də daxil olmaqla fəaliyyət göstərdiyi 25 il ərzində 20-yə yaxın beynəlxalq maliyyə tərəfdaşları ilə birgə həyata keçirdiyi layihələr çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrindəki biznes subyektlərini ucuz maliyyə vəsaitləri ilə təmin etmişdir. Hesabat ili də bu baxımdan istisna olmamışdır. Belə ki, hesabat dövründə Bank və Almaniyanın Sparkassenstiftung für Internationale Kooperation fondu arasında imzalanan əməkdaşlıq müqaviləsi çərçivəsində ayrılan 750 000 ABŞ dolları məbləğində vəsait KOS kreditləşməsinə yönəldilmişdir. Ümumilikdə isə adı çəkilən müqavilə üzrə 1,5 milyon ABŞ dolları məbləğində vəsait ayrılması nəzərdə tutulur.

Eyni zamanda, yerli maliyyə fondlarından Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin müvəkkil bankı kimi TuranBank hesabat ilində də sahibkarlıq subyektlərinin maliyyələşdirilməsini uğurla davam etdirmişdir. İl ərzində Bank tərəfindən kreditləşdirilmiş layihələrin icrası nəticəsində yeni 493 iş yeri açılmışdır

| Vəsaitin mənbəyi | 2017-ci ildə verilmiş kreditlərin sayı | 2017-ci ildə verilmiş kreditlərin məbləği (mln. AZN) | Yeni açılmış iş yerlərinin sayı |
|---|---|---|---|
| Sahibkarlığa Kömək Milli Fondu | 192 | 5,4 | 417 |
| Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti | 10 | 1,5 | 76 |

Əhalinin mənzillərə olan tələbatını ödəmək üçün TuranBank Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ilə əməkdaşlıq edir. Hesabat ili ərzində Bank tərəfindən 37%-i güzəştli, 63%-i isə adi ipoteka olmaqla 4,6 milyon manat həcmində sosial ipoteka kreditləri verilmişdir. Ötən il ərzində Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu vəsaitləri hesabına verilən kreditlərin şərtlərinə yenidən baxılaraq kreditin maksimum məbləği 150 min manatadək qaldırılmışdır. Bank öz növbəsində müştərilərini düşünərək adi ipoteka kreditlərinin faiz dərəcəsini 8%-dən 7%-ə endirmişdir.

Hesabat ilində TuranBank gənclər və xanımlara fərdi sahibkarlıq bacarıqlarını realizə etməyə imkan verən yeni "Gənc sahibkar" və "Sahibkar xanım" biznes krediti məhsullarını istifadəyə təqdim etmişdir. Yerli bazarda yeni məhsul olan "Sahibkar xanım" biznes krediti istehsalat, ticarət, xidmət və kənd təsərrüfatı sektorunda fəaliyyət göstərərək şəxsi biznesini inkişaf etdirmək istəyən Azərbaycan Respublikasının qadın vətəndaşları üçün yaradılmışdır. Bank qadın sahibkarların öz ideyalarını əzmkarlıqla reallığa çevirməsi üçün onlara məsləhət dəstəyi də verir.

Hesabat ilində ölkə iqtisadiyyatının inkişafı fonunda dövlət investisiyalarının artması bank zəmanətlərinə tələbi də artırmışdır. 2017-ci ildə Bank tərəfindən müştərilərə 125 sayda 8 522 383 manat məbləğində dövlət satınalmalarında iştirak üçün zəmanət verilmişdir. Bunlardan 72%-i iştirak, 28%-i isə avans və icra zəmanətləri olmuşdur.

Sonda qeyd edək ki, Bank növbəti illərdə kredit siyasətində Strateji Yol Xəritəsi və Bankın öz strateji hədəflərini nəzərə alaraq əhalinin və müxtəlif biznes subyektlərinin artan tələblərini qarşılamaq üçün mövcud məhsullarını təkmilləşdirəcək və yeni məhsulları istifadəyə verəcəkdir.



*Toqqa. Azərbaycan.*
*XX əsrin əvvəli.*

# MÜŞTƏRİ XİDMƏTLƏRİ VƏ MARKETİNQ FƏALİYYƏTİ

Hesabat ilində TuranBank 50 mindən yuxarı aktiv müştəri bazasına malik olmaqla, ölkə üzrə 16 satış nöqtəsi, 29 ATM, 170 Pos-terminal ilə müştərilərə xidmət etmişdir. Bank öz müştərilərinə keyfiyyətli hesablaşma-kassa əməliyyatları, bank kartlarına xidmət, pul köçürmələri, konsultasiya və digər xidmətləri təklif etmşdir. Hesabat dövründə Bank tərəfindən günün tələbləri nəzərə alınaraq hüquqi şəxslərə ənənəvi və müasir rəqəmsal xidmətlər təklif olunmuşdur.

Bankın fəaliyyətinin rəqabətqabiliyyətli olması üçün hesabat ili ərzində mütəmadi olaraq marketinq araşdırmaları aparılmış və araşdırmaların nəticəsi olaraq əhaliyə, biznes subyektlərinə yeni məhsul və xidmətlər təklif olunmuşdur. Bankımız ilk növbədə son texnologiyaların üstünlüklərindən yararlanmaqla özünün rəsmi veb saytı və sosial şəbəkələrdəki səhifələri vasitəsilə elektron bankçılığı inkişaf etdirmək üzrə işləri davam etdirmişdir. Bundan əlavə, əhali, fərdi sahibkarlıq subyektləri, kiçik və orta biznes, habelə iri korporativ müştərilər üçün innovativ bank məhsul və xidmətləri təklif etməklə plastik kartlarla nağdsız hesablaşmaların həcminin artırmına nail olunmuşdur. Belə ki, 2017-ci ildə "Nağdsız hesablaşmalar" haqqında Qanunun tələblərinə cavab verən, iqtisadi şəffaflığın təmin edilməsinə xidmət edən Maestro Tax kartı, Young Businessman və Business Lady kimi plastik kartlar sahibkar fiziki şəxslərə təqdim olunmuş, plastik kart müştərilərinə xərclədikləri pulun 30%-dək hissəsini geri almağa imkan verən CashBack xidməti istifadəyə verilmişdir. Ümumilikdə hesabat ilində Bankın ölkədə elektron ödəniş alətlərindən istifadənin kütləviləşdirilməsi və əhalinin elektron ödəniş xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində gördüyü işlər son nəticədə hesabat dövründə 2016-cı illə müqayisədə plastik kartların satışının 2 dəfədən çox artımına səbəb olmuşdur.

Qeyd edək ki, yaxın gələcəkdə müştərilərimizə operativ və məsafədən xidmət göstərməyə imkan verən elektron bankçılıq kimi sahələr daha da təkmilləşdirilərək məsafədən xidmət növlərinin çeşidinin genişləndirilməsi nəzərdə tutulur. Bütün bunlar müştərilərimizə ən yüksək səviyyədə operativ xidmət göstərməyə və yüksək müştəri məmnunluğunu təmin etməyə imkan verəcək.

Əmanətlərin Sığortalanması Fondunun üzvü olan TuranBank hesabat ilində də sərfəli şərtləri ilə seçilən çeşidli depozit məhsulları, həmçinin depozit kampaniyası vasitəsilə manatda olan əmanətlərin həm sayının, həm də məbləğinin artmasına nail olmuşdur. Bundan əlavə, Banka əmanət yerləşdirən şəxslər əmanətləri müqabilində həm yüksək faiz gəliri əldə etmiş, həm də sərfəli şərtlərlə istehlak və kart kreditləri əldə etmək imkanı qazanmışlar.

Hesabat dövründə Bank depozit müştərilərini özünün 25 illik yubileyinə həsr olunmuş möhtəşəm "Yubiley Fürsəti" adlı kampaniya ilə sevindirmşdir. Kampaniyanın keçirildiyi müddət ərzində Bankda ən azı bir il müddətinə minimum 1000 manat və ya ABŞ dolları məbləğində depozit yatıran müştərilər Toyota Camry avtomobili ilə yanaşı, Yunanıstan və Türkiyəyə 2 nəfərlik səyahət paketi, televizor, noutbuk, planşet, mobil telefon, fotokamera kimi çox sayda digər uduşlara sahib olmuşlar. Böyük marağa səbəb olan kampaniyada 15000 yaxın lotereya bileti iştirak etmişdir.

Hesabat ilində "Bu şəhərdə" yumoristik konsertlərinə Baş sponsorluq edən Bank özünün sosial şəbəkələrdəki səhifələrinin izləyiciləri arasında "Yubiley Fürsəti!" adı altında virtual oyun, "Dostunu gətir, hədiyyə qazan", "Yeni il təbriki" adı altında müsabiqələr keçirərək qaliblərə qiymətli hədiyyələr təqdim etmişdir.

Eyni zamanda hesabat ilində TuranBankın korporativ saytı, sosial şəbəkələrdəki səhifələrinin imkanlarından da geniş istifadə olunmaqla Bankın maliyyə göstəriciləri, məhsul və xidmətləri, kampaniyaları ilə bağlı məlumatların geniş oxucu kütləsinə aktiv şəkildə çatdırılması təmin olunmuşdur.

Əvvəlki illərdə müştərilərimizlə ünsiyyət və xidmət kanallarımızın say, keyfiyyət və çeşidlilik parametrlərinin inkişaf etdirilməsi hesabat ilində nəticələrimizə müsbət təsirini göstərmişdir. Belə ki, Call Centre, onlayn konsultasiya, böyük istifadəçi auditoriyasına malik sosial şəbəkələrdə olan səhifələr vasitəsilə müştərilər Banka gəlmədən müraciət edib onları maraqlandıran suallara operativ şəkildə cavab almaq, şikayyət və təkliflərini vermək imkanından geniş istifadə etmişlər. Bundan əlavə, adıçəkilən məsafədən ünsiyyət vasitələri artıq Bankın seçilən satış kanallarından birinə çevrilmişdir.



*Bilərzik. Azərbaycan.*
*XIX əsrin sonu – XX əsrin əvvəli.*

# KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT

TuranBankda idarəetmənin başlıca prinsipləri Bankın Korporativ İdarəetmə Məcəlləsində öz əksini tapmışdır. Korporativ idarəetmə Bankın səhmdarları, menecerləri və müştəriləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə xidmət göstərir. Bu da, öz növbəsində, Bankın bütün istiqamətlər üzrə fəaliyyətinin səmərəliliyinin artırılmasını təmin edir. Bankda korporativ idarəetmənin rolunun artırılması ilə yanaşı, korporativ mədəniyyətin və korporativ etikanın inkişafına da xüsusi diqqət yetirilir. Etik normalara sadiqlik və əsas dəyərlərə inam TuranBankda korporativ mədəniyyətin formalaşmasına və qorunmasına xidmət göstərir.

Korporativ idarəetmə strukturu bütün səhmdarlara, o cümlədən azlıqda olan və xarici səhmdarlara eyni münasibət bəslənməsini təmin etməlidir. Bütün səhmdarlar onların hüquqları pozulduğu halda onları bərpa etmək imkanına malik olmalıdır ki, mövcud və yeni səhmdarlar tərəfindən investisiyalar qoyulmasına maraq artsın.

Hesabat ilində Bankın ali qərarverici orqanı olan Səhmdarların Ümumi Yığıncağının bir iclası keçirilmiş və bu iclaslarda Bankın gələcək strategiyası ilə bağlı mühüm qərarlar qəbul edilmişdir. Həmin dövr ərzində Bankın Müşahidə Şurasının altı iclası keçirilmiş və həmin iclaslarda bir sıra önəmli məsələlər müzakirə edilmiş, habelə, "Kredit portfeli üzrə monitorinqin keçirilməsi haqqında", "TuranBank ASC-də arxiv işinin aparılması haqqında" qaydalar təsdiq edilmişdir.

Hesabat ili ərzində İdarə Heyətinin 90 iclası keçirilmiş və iclaslarda ümumilikdə 192 məsələ müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur. İdarə Heyətinin iclaslarında Bankda inkassasiya və təhlükəsizlik ilə bağlı tədbirlərin görülməsi, Bankın strukturlarında keçirilmiş auditin nəticələri, yeni kart, kredit və əmanət layihələri, tarif dərəcələrinə dəyişiklik edilməsi, əmanət kampaniyası ilə bağlı məsələlər müzakirə edilmişdir.

İdarə Heyətinin iclaslarında, həmçinin hər rüb üzrə Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində, nağdsız hesablaşmalar, FATCA ilə bağlı hesabatlar, sürətli pul köçürmə sistemləri, habelə, KSM sahəsində görülmüş işlər, eləcə də maliyyə xidmətləri istehlakçılarının müraciətlərinə dair hesabatlar müzakirə edilmişdir.

Onu da qeyd edək ki, ötən illərdə olduğu kimi hesabat ilində də Bank korporativ idarəetmə sisteminin qabaqcıl və dayanaqlı inkişafı ilə əlaqədar olaraq bir sıra beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq əlaqələrini genişləndirmişdir.

Hesabat ilində Bankın dinamik inkişafı, qarşısına qoyduğu vəzifələrin öhdəsindən uğurla gəlməsi Bankda korporativ idarəetmənin stabil inkişafından və onun bu sahədə mövcud olan qabaqcıl tələblərə cavab verməsindən xəbər verir.

TuranBank Korporativ Sosial Məsuliyyəti dayanıqlı inkişafının ayrılmaz tərkib hissəsi hesab edərək hər zaman diqqət mərkəzində saxlayır. Hesabat ilində Bank özünün KSM proqramı çərçivəsində aşağıda qeyd olunan və elm, təhsil, mədəniyyət, incəsənət, idman və sağlamlıq kimi sahələrin inkişafına dəstək verən bir sıra layihələr və sosial tədbirləri uğurla həyata keçirmişdir:

- Novruz bayramı, "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü", eləcə də Ramazan və Qurban bayramı münasibətilə uşaq evinə ziyarət və

uşaqlar üçün teatr tamaşasının nümayişinin təşkili, eyni zamanda, uşaqlara hədiyyə paylanması və ərzaq yardımının edilməsi;

- Regional idman mərkəzlərindən sayılan Göyəzən Futbol Klubuna, Göyəzən Güləş Məktəbinə və Ümummilli Lider Heydər Əliyevin 94 illik Yubileyi münasibətilə Qazax şəhərində keçirilmiş yeniyetmələrarası açıq güləş turnirinə sponsorluq;

- Azərbaycan Talassemiya Federasiyasının təşkilatçılığı ilə Bank əməkdaşlarının ənənəvi qanvermə aksiyasının təşkili;

Hesabat ilində Bank maliyyə sistemində çalışanların bilik və bacarıqlarının keyfiyyətcə yeni müstəviyə çıxmasını, habelə maliyyə xidmətlərindən istifadə edənlərin maliyyə savadlılığının artırılmasını, sağlam, etibarlı, dayanıqlı və effektiv maliyyə sisteminin formalaşdırılmasını dəstəkləyən layihələrin icrasını davam etdirmişdir. Artıq bir neçə ildir ki, maliyyə savadlılığı mövzüsunda müxtəlif layihələrdə müvəffəqiyyətlə iştirak edən Bank, 2017-ci ildə Azərbaycan Banklar Assosiyasiyası tərəfindən keçirilən "Bankçılıq Mükafatları-2017" adlı tədbirdə "Korporativ sosial məsuliyyət" və "Ən fəal maliyyə savadlılığı dəstəkçisi" nominasiyaları üzrə mükafatlandırılmışdır.

Hesabat dövründə kredit layihələrin maliyyələşməsi zamanı və bütün layihə dövrü biznes fəaliyyətinin Ekoloji və Sosial aspektdən qiymətləndirmə mexanizmlərinin effektivliyinin artırılmasına diqqət edilmişdir. Kredit memorandumları ilə yanaşı Ekoloji və Sosial fəaliyyətin yoxlanılması vərəqəsi hazırlanmış və maliyyələşdirilən obyektlərin ətraf mühitə təsiri təhlil edilmişdir. Hesabat dövründə "İstisnalar siyahısı"na daxil olan fəaliyyətlə bağlı kredit müraciətləri olmamışdır.

Hesabat ilində Mikromaliyyə Mərkəzi tərəfindən təqdim olunan tövsiyələr üzrə Tədbirlər Planına əsasən "Daxili mühitin mühafizəsi üçün məqsəd və hədəflərin müəyyən edilməsi" ilə bağlı Baş ofis və filiallarda kağız və kimyəvi maddələrdən istifadəni azaltmaq üzrə hədəflər müəyyən olunmuş və istifadə limitlərinə əməl edilmişdir.

2014-cü ildə Bankımız IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi, ASAN xidmət və Təmiz Şəhər ASC-nin "Hər kağızı bir yarpağa dəyişək" adlı birgə layihəsinə qoşulduqdan sonra kağız tullantılarının təkrar istehsala təhvil verilməsi ənənə halını almışdır. Hesabat ilində 6020 kiloqram tullantı kağız təkrar emal üçün Azərbaycan kağiz və karton istehsalı Kombinatına təhvil verilmişdir.



***Bilərzik "həsiri". Azərbaycan. XIX əsr.***

# RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

Hesabat ili bütövlükdə bank sektoru üçün mürəkkəb iqtisadi şəraitdə sabitliyin, dayanıqlığın təmin edilməsi dövrü kimi yadda qalmışdır. Belə ki, bankların məzənnənin korreksiyasına adaptasiyası, eyni zamanda bank nəzarəti və prudensial tənzimləmənin çevikliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər bank sektorunda risklərin adekvat səviyyələrdə idarə edilməsinə imkan vermişdir.

Həmişə olduğu kimi hesabat ili də Bank üçün risklərin idarə edilməsi biznes fəaliyyətinin ayrılmaz hissəsi olmuş və onun ümumi strategiyasına müvafiq olaraq, risklərin idarə olunması strategiyası minimum risklə bank fəaliyyətinin inkişafına nail olunması üçün ən əsas prioritet sahə kimi götürülmüşdür.

Bankda bu dövr ərzində hər risk istiqaməti (bazar, likvidlik, kredit, əməliyyat) üzrə risklərin idarə edilməsinin daha da keyfiyyətli və effektiv aparılması məqsədi ilə bir sıra layihələr həyata keçirilmişdir. Belə layihələrdən biri, Erkən Xəbərdarlıq İndiqatorları sisteminin qurulması olmuşdur. Belə ki, layihə çərçivəsində hər bir risk istiqamətini özündə ehtiva edən, indiqatorlar yaradılmış və bununla da Bankda baş verə biləcək neqativ hadisələrə vaxtında daha adekvat və effektiv reaksiyaların verilməsinə nail olunmuşdur.

Bununla yanaşı Bankın informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyinin təmin edilməsi kiber təhlükəsizliyin əhəmiyyətliliyi nəzərə alınmaqla qiymətləndirilmiş və informasiya təhlükəsizliyi istiqamətində dayanıqlılığının yoxlanılması məqsədi ilə müxtəlif istiqamətlərdə məlumat mərkəzlərinin stress testləri həyata keçirilmişdir.

Təbii ki, kredit portfeli və onun keyfiyyəti də unudulmamış və Bank qarşısında duran ən ümdə məsələ hesab edilmişdir. Bu dövr ərzində sağlam kreditləşməyə nail olunması üçün skorinq və reytinq modelləri inkişaf etdirilmiş, kredit komitələrinin tərkibinə yenidən baxılmış və həmçinin maarifləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Bununla yanaşı problemli kreditlərin həll edilməsi məqsədilə komandanın tərkibi komplektləşdirilmiş, təchizat bazası yaxşılaşdırılmışdır.



*"Piyaləzəng" sırğaları. Azərbaycan. XX əsrin əvvəli.*

Hesabat dövrü ərzində makro səviyyədə təhlillər aparılmış, Bankın manatın məzənnəsinin korreksiyasına adaptasiyasına nail olunmuş və valyuta mövqeyi idarəediləbilən səviyyədə saxlanılmışdır.

Qeyd edilmiş işlərlə yanaşı Bankda risklərin idarə edilməsində bütövlüyə (integrity) nail olmaq, eyni zamanda əməliyyat risklərini minimuma endirmək istiqamətində əməkdaşlara hər bir risk idarəetmə sahəsi üzrə təlimlər keçirilmiş, komandanın risk idarəetmə baxışları inkişaf etdirilmiş, daxili nəzarət sistemlərinin adekvatlığına nail olmaq məqsədilə əməliyyatlar inspeksiya edilmiş və fraud ehtimalı olan sahələr təhlil edilərək boşluqlar aradan qaldırılmışdır.

Ümumilkdə 2017-ci ildə, öncəki illərin əlverişsiz beynəlxalq iqtisadi konyunkturunun ölkə iqtisadiyyatına və onun tərkib hissəsi sayılan bank sektoruna təsirini Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən aparılmış məqsədyönlü tədbirlər minimuma endirməyə imkan vermişdir.

# ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması (ÇPY/TMM) sahəsində dövlət siyasətini həyata keçirən, bu sahədə nəzarət sistemini təkmilləşdirən və aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirən orqan Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinqi Xidmətidir.

Hesabat ilində Bankda Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət Azərbaycan Respublikasının Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunu, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinq Xidmətinin əmr və qərarları, Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) və Maliyyə Kəşfiyyatı Orqanlarının ixtisaslaşmış qurumu – Eqmont Qrupunun tövsiyyə və qərarları bazasında aparılmışdır.

Əvvəlki illərdə ÇPY/TMM üzrə risklər əhəmiyyətlilik baxımından ölkə, müştəri, məbləğ və məhsul riski kimi təsnifləşdirilərək risk kateoqriyaları hazırlanmışdır. Hazırlanmış olan risk kateqoriyaları hesabat ilində avtomatlaşdırılmış bank sistemində tətbiq olunmağa başlanmış və yeni müştəri xidmətləri modulunda istifadə edilmişdir. Belə ki, müştərilər bu kateqoriya əsasında aşağı, orta və yüksək riskli müştərilər kimi təsnifləşdirilmişdir. Təsnifləşdirilmiş müştərilər kateqoriya əsasında dövrü olaraq eyniləşdirilir və yüksək risk kateqoriyasına aid olan müştərilər üç aydan bir, orta risk kateqoriyasına aid olan müştərilər altı aydan bir, aşağı risk kateqoriyasına aid müştərilər ildə bir dəfə eyniləşdirilir. Bununla yanaşı eyniləşdirilməli müştərilərimiz olan maliyyə institutları Öz Müştərini Tanı prinsipinə əsasən sorğu anket formaları əsasında eyniləşdirilir və MMX-nin tələblərinə uyğun olaraq adımlar atılır.

Bu dövr ərzində ÇPY/TMM istiqamətində bankdaxili təlimlərin sayı artırılmışdır. Beləki, bu istiqamətdə həm əməliyyat, həm də risklərin idarə edilməsi strukturları tərəfindən mütəmadi təlimlər keçirilmişdir. ÇPY/TMM üzrə ümumi Bank əməkdaşlarına hesabat ili ərzində dörd sayda təlimlər keçirilmişdir. Təlimlərdə Bankın 121 əməkdaşı iştirak etmişdir ki, təlimin mövsuzu Uyğunluq şöbəsinin yeni tələbləri, AML istiqamətində qanunvericilikdə baş vermiş dəyişikliklər və yeniliklər haqqında məlumatları əhatə etmişdir.

Hesabat ilində Nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikasının Qanunun tələblərinə uyğun olaraq vergi ödəyicilərinin növündən aslı olaraq, müəyyən edilmiş limitə uyğun nağd məxaric əməliyyatlarına nəzarət etmək məqsədi ilə, Bankın proqramına dəyişiklik edilmiş və limitdən artıq məxaric əməliyyatlarına avtomatik nəzarət edilməsinə nail olunmuşdur.

Həmçinin, hesabat ilində Bankın Risklərin İdarə Edilməsi strukturu tərəfindən ÇPY/TMM

istiqamətində əlavə bankdaxili proqram təminatı təkminləşdirilmişdir. Əlavə proqram təminatı hər bir bank əməliyyatından əvvəl müştəriləri eyniləşdirmək, Sanksiya tətbiq olunmuş şəxslərin, Nəzarət altında olan şəxslərin, Ofşor zonalarla, Qara siyahı ölkələri və onların vətəndaşları ilə bağlı əməliyyatların qarşısını almaq məqsədi ilə yaradılmışdır. Maliyyə Monitorinq Xidməti tərəfindən sanksiya tətbiq olunmuş şəxslərin siyahısının yenilənməsi ilə bağlı məktub daxil olduqda, tərəfimizdən bankdaxili proqramda son yenilənmə aparılır.



***Bilərzik. Azərbaycan.***
***XIX əsr.***

# İNFORMASİYA TEXNOLOGİYALARI

TuranBank bank sektorunda müasir texnologiyaların tətbiqi, rəqəmsal bankçılığın inkişafı tendensiyasına uyğun olaraq öz infrastrukturunu ildən ilə təkmilləşdirməkdədir. 2016-2019-cu illər üzrə strateji plana uyğun olaraq Bank öz infrasturukturunda əhəmiyyətli dəyişiklər etmişdir. İnformasiya təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə yeni, müasir sistem alınmış, Bankın kiber hücumlardan müdafiə sistemi təkmilləşdirilmişdir. Hesabat ili ərzində Bankda heç bir geniş miqyaslı informasiya təhlükəsizliyi insidenti baş verməmiş, kiber təhlükəsizlik kifayət qədər etibarlı şəkildə təmin edilmişdir.

Qeyri nağd dövriyyənin həcminin artırılması, elektron bankçılığın təkmilləşdirilməsi, müştərilərə məsafədən xidmət növlərinin sayının artırılması məqsədi ilə Banka əlavə gənc kadrlar cəlb edilmiş, geniş həcmli xüsusi bir texnoloji layihənin hazırlanmasına başlanılmışdır. Layihənin 2018-ci il ərzində tamamlanması və istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bu texnoloji layihə müştərilərə daha çeşidli və sürətli xidmət göstərilməsini təmin edəcək, texnologiyaların inkişafı ilə artmaqda olan müştəri tələblərini daha çevik şəkildə təmin etməyə imkan verəcəkdir. Həmçinin, gənc nəslin texnologiyalarla daha yaxından bağlılığı nəzərə alınaraq, təqdim ediləcək istənilən məhsulun qanunvericiliyə uyğun olmaqla məsafədən əldə edilə bilməsi tipli məsələlərə xüsusi diqqət yetirilmişdir. Qeyd edilən layihənin tamamlanması sahibkarların fəaliyyətinə daha çevik dəstək göstərməklə sahibkarlığın inkişafına daha bir töhfə verəcək, həmçinin fiziki şəxslərə daha rahat şəkildə bank xidmətlərindən istifadə etmək imkanı yaradacaqdır.

Ölkə iqtisadiyyatında nağdsız dövriyyənin stimullaşdırlması hədəfinə bağlı olaraq Bank informasiya texnologiyalarından səmərəli və effektiv istifadə etməklə nağdsız dövriyyənin həcmini və müştəri məmnuniyyəti səviyyəsini yüksəltməyi, əməliyyat xərclərini minimallaşdırmağı, bu sahəyə yatırılmış investisiyanın geri dönüşünü təmin etməyi nəzərdə tutur. Bank əvvəlki illərdə olduğu kimi növbəti illərdə də texnologiyanın imkanlarından optimal şəkildə istifadə etməklə müştərilərə dayanıqlı, keyfiyyətli və etibarlı xidmət göstərəcək, "bizimlə etibarlıdır" prinsipinə hər zaman sadiq qalacaqdır.



***Kəmər. Azərbaycan. XIX əsr.***

# İNSAN RESURSLARI

TuranBank 2017-ci ili 384 nəfər əməkdaşla başa vurmuşdur. Hesabat ilində İRİED işçi sayının optimallaşdırılması, həmçinin dəyərləndirilməsi məqsədilə vakant vəzifələrə zaman itirmədən kadrların bankdaxilindən seçilərək yerləşdirilməsini təmin etmişdir. Bu məqsədlə işçilərin potensialını aşkara çıxarmaq və fəaliyyətini motivləşdirmək üçün bankdaxili rotasiyalara üstünlük verilmiş, nəticədə 48 nəfər əməkdaş yeni vəzifədə fəaliyyətini davam etdirmişdir. Bankda işlək karyera inkişaf proqramı işçi heyətinin karyera pillələrində yüksəlməsinə və potensialına uyğun pilləyə çatmasına mühüm təkan verir. Bunun nəticəsidir ki, hesabat ili üzrə Bankda müvafiq struktur dəyişiklikləri aparılmış, 156 nəfər əməkdaşın karyera yüksəlişi həyata keçirilmişdir.

Hesabat ilində Bankın Təlim Mərkəzində həm yerli, həm də əcnəbi təlimçilər tərəfindən mütəmadi treninqlər təşkil olunmuşdur. Paralel olaraq daxili təlimçi adını qazanmaq istəyən işçilərə təlimçilik bacarıqlarının inkişafı istiqamətində Bankda geniş imkanlar yaradılmışdır. Potensial əməkdaşlıq mövqeyimizi genişləndirmək məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə TuranBank arasında “Maliyyə Savadlılığı” adlı texniki yardım layihəsinə kömək məqsədilə Azərbaycan Bank Tədris Mərkəzində daxili təlimçi və maarifləndirici adı altında işçi qruplarına müvafiq kurslar keçirilmişdir. Bu layihə çərçivəsində əhalinin maliyyə biliklərinin artırılması istiqamətində mütəmadi işlər aparılır. Bundan əlavə olaraq, Bankın Təlim Mərkəzində Almaniyanın "Sparkassenstiftung" bankının nümayəndəsi tərəfindən müvafiq əməkdaşlara “Risklərin İdarə olunması” mövzusunda seminar təşkil olunmuşdur. Həmçinin Bank tərəfindən işçilərə fərdi təhsil şəraiti yaradılmış, onlara Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasında (ACCA) mühasiblik dərəcələri üzrə onlayn imtahan vermək üçün maliyyə dəstəyi göstərilmişdir.

Hesabat ilində Azərbaycan Banklar Assosiasiyası (ABA) tərəfindən təşkil olunan ekspert qruplarının tədbirlərində fəal iştirak, yerli bankların kadr şöbələri ilə mütəmadi məlumatlar mübadiləsi Bank üçün vacib prioritetlərdən olmuşdur.

İnkişaf strategiyası çərçivəsində qəbul edilən qərarlardan biri də güclü intelekt və sağlam düşüncəyə malik olan gənc nəslin nümayəndələrinin Bank tərəfindən işlə təmin edilməsi, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi kimi tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bank hesabat ili ərzində Azərbaycan Diplomatik Akademiyası (ADA) və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Karyera mərkəzləri ilə sıx əməkdaşlıq edərək, tələbələrə bank təcrübəsindən yararlanmağa əlverişli şərait yaratmışdır. Bu kimi əməkdaşlıq zəncirinin gələcəkdə daha da genişləndirilməsi nəzərdə tutulur. Hesabat ilində İRİE departamenti ADA və UNEC tərəfindən təşkil olunan əmək yarmarkasında fəal iştirak etmiş, vakansiyaya uyğun olaraq müvafiq namizədlər Bankda işlə təmin olunmuşlar.

Hesabat ili ərzində təlim və təcrübə sahəsində tələbələrin də maariflənməsinə xüsusi önəm verilmişdir. Belə ki, “Banklarda auditin əsasları” və “Bank riskləri və valyuta əməliyyatları” mövzularında Bankın Təlim Mərkəzində keçirilmiş treninqlərdə 50-yə yaxın gənc tələbə bank sahəsində yeni biliklərə yiyələnmiş, hər iki təlimin nəticəsi olaraq onlar sertifikatlarla təltif olunmuşlar.

İRİED işçilər arasında açıq və çevik kommunikasiyanın paralel tətbiq edilməsinə nəzarət edir, əməkdaşların həm iş, həm də sosial fəaliyyətdə inkişafına qayğı göstərir. Komandadaxili münasibətləri genişləndirmək məqsədilə Bankda və ABA-da keçirilən “Şahmat turniri” və “Kim? Harada? Nə zaman?” yarışlarında əməkdaşların iştirakı təmin edilmişdir. Bankın 2 nəfər əməkdaşı isə Həmkarlar İttifaqı tərəfindən “Əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər”inə görə ilin “Peşəkar Gənci” fəxri adına layiq görülmüşlər.

Bankda daxili intizam mədəniyyəti insan resurslarının idarə edilməsində ən vacib və öndə duran ünsürlərdən biridir. Hesabat ilində işçilərin öz müraciətlərini sərbəst şəkildə bildirmələri üçün Bankın korporativ dəyərlərinə və beynəlxalq təcrübələrə əsaslanan "İşçilərin şikayət və təkliflərinə baxılması" Proseduru hazırlanmışdır. Etik və mənəvi dəyərlər əsasında hazırlanmış Prosedurun bəndlərinə riayət olunması üçün Bank daxilində hər bir şərait yaradılmışdır.



*Sinəbənd "ay-ulduz". Azərbaycan. XX əsr.*

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Beynəlxalq əlaqələrin inkişafı strategiyası çərçivəsində Bank ölkə iqtisadiyyatının real sektorunun inkişafına dəstək olacaq ucuz maliyyə vəsaitlərini cəlb etmək məqsədilə öz xarici tərəfdaşları ilə aparılan danışıqları intensivləşdirmişdir. Belə ki, hesabat ilində Bankımız dünyanın nüfuzlu maliyyə institutlarından olan Avropa Yenidənqurma və İnkişaf Bankı, FMO, Asiya İnkişaf Bankı ilə danışıqlarını uğurla davam etdirmişdir. Bu məqsəd ilə FMO və Asiya İnkişaf Bankı Bankda geniş təhlillər aparmış və növbəti illərdə əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Ənənəvi bankçılığa parallel olaraq İslam bankçılığının respublikamızın maliyyə sektorunda tətbiqi üçün fəal təşviqat aparan Bank İslam Maliyyələşdirilməsi istiqamətində Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD, İslam İnkişaf Bankı Qrupu) ilə fəal əməkdaşlığı davam etdirir. Bu istiqamətdə də qarşı tərəf ilə hesabat ilində geniş tərkibdə görüşlər keçirilmiş və növbəti ildə KOS maliyyələşməsi üzrə yeni resursun cəlbi istiqamətində danışıqların aparılmasına qərar verilmişdir.

Hesabat ilində Bankın manatda olan likvidlik mövqeyinin möhkəmləndirilməsi və ABŞ dollarında olan valyuta mövqeyinin risklərdən sığortalanması üçün ICBC Bankı ilə 5 milyon ABŞ dolları həcmində NDF (non-deliverable forward – şərti forvard) müqaviləsi bağlanmışdır.

Hesabat ilində Bankımız texniki yardım layihələrinin alınması istiqamətində də beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq qurmuşdur. Almaniyanın “Sparkassenstiftung für internationale Kooperation” təşkilatının “Məsuliyyətli kreditləşmə” layihəsi çərçivəsində dəvət olunmuş ekspert Renate Stopsak Bankın menecmenti və mütəxəssisləri üçün Risklərin idarəedilməsi mövzusunda seminar keçmişdir.

Qeyd edək ki, məzənnə rejiminin dəyişməsindən bəzi müştərilərimizin kredit ödənişlərində yaranan gecikmələr, həmçinin xarici valyutada olan vəsaitlərin yerləşdirilməsində yaranmış çətinliklərə baxmayaraq Bankımız tərəfdaşları qarşısında öz öhdəliklərini daim vaxtı-vaxtında icra etmişdir. Məhz bu səbəbdən tərəfdaşlarımızla apardığımız bütün danışıqlarda və görüşlərdə onlar Bankımızla əməkdaşlığı davam etdirəcəklərini dəfələrlə vurğulamış və Bankın faiz xərclərinin effektiv idarə edilməsi istiqamətində daim bizə dəstək olacaqlarını bəyan etmişlər.

Sonda qeyd etmək istərdik ki, 2018-ci ilin dövlət büdcəsində irimiqyaslı layihələrin həyata keçirilməsinə şərait yaradan investisiya xərclərinin artırılması, dövlətin apardığı uğurlu iqtisadi siyasət sayəsində ölkədə bərqərar olmuş maliyyə sabitliyi, respublikamızda biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər, sahibkarlığı dəstəkləyən sərəncamlar və eyni zamanda Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Asiya İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq maliyyə qurumlarının Azərbaycanın iqtisadiyyatı ilə bağlı müsbət proqnozları beynəlxalq əməkdaşlığa geniş perspektivlər açmaqla Bankımızı yeni xarici tərəfdaşlarla təmasları artımağa sövq edir.



***Toqqa. Azərbaycan. XX əsr.***

# XƏZİNƏDARLIQ FƏALİYYƏTİ

Hesabat ilində Xəzinədarlıq departamenti aktiv və öhdəliklərin rentabelli idarə edilməsi, likvidlik göstəricilərinin yüksək saxlanması, bazar risklərini əvvəlcədən müəyyən edib, təsirlərinin minimuma endirilməsi istiqamətində operativ və peşəkar mövqe seçərək Bankın əsas maliyyə göstəricilərinin normalar daxilində saxlanmasına nail olmuşdur. Məlum devalvasiya hadisələrindən sonra, ölkə iqtisadiyyatında hiss edilən dirçəliş əlamətləri və buna uyğun mümkün maliyyə alətlərindən maksimum yararlanmaq istəyi müsbət nəticələr vermişdir. Maliyyə sektorunun tam məhsuldar olmaması və aktivliyin hələ ki, aşağı olmasına baxmayaraq, Xəzinədarlıq departamenti fəaliyyətini ilk növbədə Bankın likvidlik səviyyəsinin yüksək saxlanılması, valyuta ticarətindən və mövqeyindən gəlir əldə edilməsi, eləcə də faiz xərclərinin optimallaşdırılması, əsas faiz xərci yaradan öhdəliklərin diversifikasiyası və maliyyə bazarlarındakı dalğalanmalara çevik şəkildə qarşılıq verilməsi istiqamətində qurmuşdur.

Enerji daşıyıcılarının qiymətinin il ərzində yüksəlməsi səbəbindən respublikamızın iqtisadiyyatında durğunluq vəziyyətinin tədricən aradan qalxması və aparılan sabit məzənnə siyasətinin Bankın müştərilərinə də təsiri olmuş, hüquqi və fiziki şəxslərin maliyyə fəaliyyəti canlanmışdır. Bundan başqa hesabat ili ərzində lisenziyası ləğv edilmiş bankların sayının 1 bank səviyyəsinə qədər azalması müştərilər və xüsusən əmanətçilər arasında psixoloji təzyiqi azaltmış və bank sektoruna qarşı inamı artırmışdır.

Bütün bu çağırışlara baxmayaraq Xəzinədarlıq departamenti öz funksiyasına uyğun olaraq gəlir mərkəzi kimi fəaliyyət göstərməyə davam etmişdir. Hesabat ilində qiymətli kağızlar və bazar əməliyyatlarının həcmi və mənfəətliliyi artırılmışdır. Ötən illərdə olduğundan daha fərqli olaraq, hesabat ilində valyuta bazarlarında ticarətlə yanaşı, pul bazarında vəsaitlərin yerləşdirilməsi, qiymətli kağızlar bazarında sərbəst vəsaitlərin rentabelli istifadə edilməsi əsas gəlir istiqaməti olmuşdur. Sərbəst vəsaitlər ən optimal qısamüddətli maliyyə alətlərinə və dilinq əməliyyatlarına yönəldilmişdir.

Hesabat ilində strateji hədəflərimiz olan Bank aktivlərinin səmərəli yerləşdirilməsi, likvidlik göstəricilərinin yüksək tutulması və eləcə də bazar risklərinin Banka təsirinin tam olaraq minimallaşdırılması tədbirləri uğurla həyata keçirilmişdir. Bu strateji hədəflər partnyor maliyyə institutları və müştərilərin Banka olan güvəni üçün əsas şərtləndirici amillərdir. Qarşıdan gələn ildə də Bank bu ənənəyə sadiq qalacaq, müştəri məmnuniyyətini fəaliyyətində əsas tutaraq sarsılmaz etimadı təmin edəcəkdir.



***Sinəbənd. Azərbaycan. XX əsr.***

# AUDİTOR RƏYİ

BAKER TILLY
AZERBAIJAN

Audit, Tax and Consulting
Demirchi Tower, 16th floor
Khojaly Avenue, 37
AZ1025, Baku
Azerbaijan

T: + 994 (12) 404 7 666
F: + 994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN HESABATI

"TuranBank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

***Rəy***

Biz "TuranBank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin (birlikdə "Qrup" adlandırılır) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Qrupun 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

***Rəy üçün Əsas***

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlar əsasında bizim məsuliyyətlərimiz hesabatımızın Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (MBESŞ Məcəlləsi) əsasən Qrupdan müstəqilik və MBESŞ Məcəllesi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Əsas Audit Məsələləri***

Əsas audit məsələləri, bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik məsələlərdir. Bu məsələlər ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlər barədə ayrıca rəy vermirik.

*Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi*

Konsolidə edilmiş maliyyə hesabatlarında Qeyd 11-ə baxın.

*Əsas audit məsələsi*

Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi rəhbərlik tərəfindən mülahizələrin tətbiqi və ehtimalların istifadəsi vasitəsilə hesablanır.

Aktivlərin 57% hissəsini təşkil edən müştərilərə verilmiş kreditlərin əhəmiyyətli olması və dəyərsizləşmə ehtiyatının hesablanmasında qeyri-müəyyənliklə əlaqədar olaraq, bu, əsas audit məsələsi hesab edilir.

BAKER TILLY AZERBAIJAN

*Bu məsələ ilə bağlı apardığımız audit prosedurları*

Biz tanınmış dəyərsizləşmə ehtiyatının adekvatlığını təsdiq etmək üçün kollektiv əsasla bu ehtiyatın hesablanmasında istifadə edilmiş aşağıdakı əsas ehtimalları nəzərə aldıq:

- müştərilərə verilmiş kreditlər üçün defolt ehtimalı. Biz gecikmə dövrləri üzrə bölüşdürülmüş debitor borclarının tarixi göstəricilərini müqayisə etməklə bu ehtimalı sınaqdan keçirdik;
- kreditlər üzrə defolt səviyyəsi əsasında zərər. Biz cari iqtisadi şərait barədə hesablamamızı nəzərə alaraq, müsadirə edilmiş aktivlər üzrə satış statistikasını təhlil etməklə bu zərəri sınaqdan keçirdik.

Biz seçilmiş kreditlər üzrə gecikmə günlərinin sayını yenidən hesablamaqla, gecikmə dövrləri üzrə tarixi məlumatların dəqiqliyini sınaqdan keçirdik.

Əlavə olaraq, biz dəyərsizləşmə əlaməti olan ən böyük kredit qalıqları üzrə əlaqəli debitor borclarının xalis balans dəyərini girov qoyulmuş aktivdən gözlənilən pul axınları ilə müqayisə etməklə, tanınmış ehtiyatın adekvatlığını sınaqdan keçirdik.

***İzahedici Paraqraf - Müqayisəli Məlumatlar***

Konsolidə edilmiş maliyyə hesabatlarında 31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə təqdim olunmuş müqayisəli məlumatların yenidən təqdim olunduğunu göstərən 7 saylı Qeydə diqqət yetiririk. Bu məsələ ilə əlaqədar bizim rəyimiz dəyişməmişdir.

***Digər Məsələ***

Qrupun 31 dekabr 2016-cı il tarixinə və həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının auditi digər auditor tərəfindən aparılmışdır və həmin auditor qeyd edilən maliyyə hesabatları üzrə 20 iyun 2017-ci il tarixində şərtsiz müsbət rəy vermişdir.

Biz 2017-ci il konsolidə edilmiş maliyyə hesabatlarının auditinin bir hissəsi kimi 7 saylı Qeyddə təsvir olunan 2016-cı il tarixinə konsolidə edilmiş maliyyə hesabatlarına tətbiq edilmiş düzəlişlərin auditini apardıq. Biz Qrupun 2016-cı il tarixinə konsolidə edilmiş maliyyə hesabatlarına düzəlişlərdən başqa audit yoxlaması üzrə prosedurlar həyata keçirməmişik və buna görə də 2016-cı il tarixli konsolidə edilmiş maliyyə hesabatlarına dair hər hansı rəy və ya digər təminat vermirik.

***Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İqtisadi Subyektin İdarə edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdimatına, habelə saxtakarlıq və ya xətalar nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin müşahidə olunmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Qrupu likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

BAKERTILLY
AZERBAIJAN

***Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında, saxtakarlıq və ya xətalar nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik yüksək əminlik səviyyəsi olsa da, BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və istifadəçilərin bu konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mülahizə tətbiq edir və peşəkar skeptikliyi qoruyub saxlayırıq. Biz həmçinin:

- Saxtakarlıq və ya xətalar nəticəsində yaranmasından asılı olmayaraq, konsolidə edilmiş maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq olan audit sübutunu əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranan riskdən daha yüksəkdir, çünki fırıldaqçılıq gizli sözləşmə, dələduzluq, bilərəkdən səhv buraxılma, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- Rəhbərlik tərəfindən tətbiq edilən uçot siyasətlərinin müvafiqliyini və aparılmış mühasibatlıq hesablamalarının və əlaqəli açıqlamaların əsaslı olmasını qiymətləndiririk;
- Rəhbərliyin fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin müvafiqliyi və əldə etdiyimiz audit sübutuna əsasən, Qrupun fasiləsiz fəaliyyətini davam etdirmək qabiliyyətini mühüm şübhə altına sala bilən hadisə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə qənaətə gəlirik. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin olması qənaətinə gəlsək, öz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara yönəltməli və ya bu cür açıqlamalar qeyri-adekvat olduqda, rəyimizi modifikasiya etməliyik. Bizim nəticələrimiz auditor hesabatımızın tarixinə qədər əldə edilmiş audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və ya şərtlər Qrupun fasiləsiz fəaliyyətini dayandırmasına səbəb ola bilər;
- Konsolidə edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlamaların ümumi təqdimatı, strukturu və məzmununu, habelə konsolidə edilmiş maliyyə hesabatlarının əsas əməliyyat və hadisələri düzgün təqdim edib-etməməsini qiymətləndiririk;
- Konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəy ifadə etmək məqsədilə təşkilatların maliyyə məlumatları və ya Qrup daxilində biznes fəaliyyətləri ilə bağlı kifayət qədər müvafiq audit sübutu əldə edirik. Biz Qrupun auditinə rəhbərlik, nəzarət və auditin aparılması üçün cavabdehik. Biz öz audit rəyimizlə bağlı tam məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərlə əlaqə yaradırıq.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə bağlı bəyanat verir və həmin şəxsləri əsaslı şəkildə müstəqilliyimizə təsir etməsi güman edilə bilən bütün qarşılıqlı əlaqələr və digər məsələlər, habelə zəruri hallarda müvafiq ehtiyat tədbirləri barədə məlumatlandırırıq.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxsləri məlumatlandırdığımız məsələlər arasından, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik olmuş və bu səbəbdən, əsas audit məsələlərinə daxil edilmiş məsələləri müəyyən edirik. Məsələ barədə ictimaiyyətə açıqlamanın qanunvericilik və ya normativ aktlarla qadağan edilməsi halları və ya nadir hallarda bu məsələnin hesabatımızda açıqlanmasının mənfi nəticələrinin belə açıqlamanın ictimai

BAKER TILLY AZERBAIJAN

əhəmiyyətli faydalarından artıq olması əsaslı şəkildə ehtimal edildiyi üçün, bu məsələnin hesabatımızda açıqlanmamalı olması qənaətinə gəldiyimiz hallar istisna olmaqla, biz bu cür məsələləri auditor hesabatımızda təqdim edirik.

Baker Tilly Azerbaijan

30 aprel 2018-ci il
Bakı, Azərbaycan Respublikası

"Baker Tilly Azərbaycan"-ın Nüsxəsi /
Baker Tilly Azerbaijan's Copy
QAYTARILSIN / SEND BACK:
AZ1025, Bakı şəh., Xocalı küç., 37
Demirchi Tower 16-cı mərtəbə
Tel.: (+994 12) 404 51 52

**"TURANBANK" ASC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 112,874 | 116,159 |
| Banklara verilmiş kreditlər və depozitlər | 9 | 63,005 | 100,661 |
| Satıla bilən investisiya qiymətli kağızları | 10 | 4,198 | 4,197 |
| Müştərilərə verilmiş kreditlər | 11, 30 | 258,280 | 272,816 |
| Əmlak avadanlıq və qeyri-maddi aktivlər | 12 | 15,219 | 12,663 |
| Digər aktivlər | 13 | 2,817 | 1,764 |
| **CƏMİ AKTİVLƏR** | | **456,393** | **508,260** |
| **ÖHDƏLİK VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan depozitlər və qalıqlar | 14 | 56,848 | 59,475 |
| Müştərilərin cari hesabları və depozitləri | 15, 30 | 224,022 | 226,584 |
| Subordinasiya borcları | | 12,130 | 12,664 |
| Digər borc öhdəlikləri | 16 | 123,334 | 168,378 |
| Təxirə salınmış vergi öhdəliyi | 22 | 105 | - |
| Digər öhdəliklər | 17 | 542 | 513 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **416,981** | **467,614** |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 18 | 55,003 | 55,003 |
| Səhm mükafatı | 18 | 724 | 724 |
| Binaların yenidən qiymətləndirilməsi üzrə artım | | 1,644 | 1,224 |
| Yığılmış zərər | | (17,959) | (16,305) |
| **CƏMİ KAPİTAL** | | **39,412** | **40,646** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **456,393** | **508,260** |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

12-67-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**"TURANBANK" ASC**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Başqa qeydlər olmazsa, Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixinə başa çatmış il | 31 dekabr 2016-cı il tarixinə başa çatmış il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| Faiz gəlirləri | 20, 30 | 29,523 | 31,257 |
| Faiz xərcləri | 20, 30 | (20,421) | (24,875) |
| **Xalis faiz gəliri** | | **9,102** | **6,382** |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri | 9, 30 | (1,783) | (13,323) |
| **Xalis faiz (xərci)/gəliri** | | **7,319** | **(6,941)** |
| Haqq və komissiya gəlirləri | 21, 30 | 3,234 | 3,576 |
| Haqq və komissiya xərcləri | 21, 30 | (801) | (871) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə xalis gəlir | | 875 | 575 |
| Xarici valyuta mübadiləsi əməliyyatları üzrə xalis gəlir | | 19 | 1,702 |
| Digər əməliyyatlar üzrə xalis gəlir/(xərc) | | (518) | 46 |
| **Xalis qeyri-faiz gəliri** | | **2,809** | **5,028** |
| **Əməliyyat (zərəri)/gəliri** | | **10,128** | **(1,913)** |
| İşçi heyəti ilə bağlı xərclər | 22 | (4,870) | (5,425) |
| Digər ümumi inzibati xərclər | 23 | (6,912) | (5,993) |
| **Mənfəət vergisindən əvvəlki zərər** | | **(1,654)** | **(13,331)** |
| Mənfəət vergisi xərci | 24 | - | (5) |
| **İl üzrə zərər** | | **(1,654)** | **(13,336)** |
| **Digər məcmu zərər** | | | |
| **Sonradan mənfəət və ya zərərə yenidən təsnif edilə bilməyən maddələr:** | | | |
| Əmlakın yenidən qiymətləndirilməsi üzrə yaranan xalis mənfəət | | 525 | - |
| Digər məcmu gəlirdə birbaşa qeyd olunmuş mənfəət vergisi | | (105) | - |
| **İl üzrə digər məcmu gəlir** | | **420** | **-** |
| **Cəmi il üzrə məcmu zərər** | | **(1,234)** | **(13,336)** |
| Hər səhm üzrə əsas və azaldılmış zərər (AZN ilə göstərilmiş) | 19 | (32.5) | (285.1) |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

12-67-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**"TURANBANK" ASC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | Səhmdar kapitalı | Səhm üzrə mükafat | Binaların yenidən qiymətləndi-rilməsi üzrə qiymət artımı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2016-cı il** | | **50,002** | **724** | **1,224** | **(2,969)** | **48,981** |
| İl üzrə zərər | | - | - | - | (13,336) | (13,336) |
| Buraxılmış səhmlər | 18 | 5,001 | - | - | - | 5,001 |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | | **55,003** | **724** | **1,224** | **(16,305)** | **40,646** |
| İl üzrə zərər | | - | - | - | (1,654) | (1,654) |
| İl üzrə digər məcmu gəlir | | - | - | 420 | - | 420 |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | | **55,003** | **724** | **1,644** | **(17,959)** | **39,412** |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

12-67-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**"TURANBANK" ASC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixinə başa çatmış il | 31 dekabr 2016-cı il tarixinə başa çatmış il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 26,913 | 28,653 |
| Ödənilmiş faizlər | | (21,086) | (26,718) |
| Alınmış haqq və komissiyalar | | 3,234 | 3,576 |
| Ödənilmiş haqq və komissiyalar | | (801) | (871) |
| Xarici valyutalarla ticarət üzrə əldə olunmuş gəlir | | 875 | 575 |
| Əldə olunmuş digər əməliyyat gəliri | | 366 | 46 |
| İşçi heyəti ilə bağlı xərclər | | (4,870) | (5,425) |
| Ödənilmiş digər ümumi inzibati xərclər | | (5,609) | (4,313) |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **(978)** | **(4,477)** |
| *Xalis (artım)/azalma:* | | | |
| Banklara verilmiş kreditlərdə və depozitlərdə xalis azalma | | 36,049 | 9,623 |
| Müştərilərə verilmiş kreditlərdə xalis azalma | | 11,678 | 10,011 |
| Digər aktivlərdə xalis (artım)/azalma | | (608) | 549 |
| *Xalis artım/(azalma):* | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan depozitlər və qalıqlar üzrə xalis azalma | | (2,332) | (10,296) |
| Müştərilərin depozitləri və cari hesablarında xalis artım | | 3,500 | 4,496 |
| Digər öhdəliklərdə xalis azalma | | (196) | (105) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | | **48,091** | **14,278** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (3,514) | (981) |
| Satıla bilən maliyyə aktivlərinin alışı | | (21) | (3,115) |
| Satıla bilən maliyyə aktivlərinin satışından və geri alınmasından daxilolmalar | | 2 | - |
| **İnvestisiya fəaliyyətləri üzrə istifadə olunan pul vəsaitləri** | | **(3,533)** | **(4,096)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Digər borc öhdəliklərinin əldə olunması | | 29,210 | 9,880 |
| Digər borc öhdəliklərinin ödənilməsi | | (73,100) | (47,060) |
| Subordinasiya borclarının əldə olunması | | 3,311 | 11,022 |
| Subordinasiya borclarının ödənilməsi | | (3,311) | - |
| Səhmdar kapitalının buraxılmasından daxilolmalar | | - | 5,001 |
| **Maliyyə fəaliyyətləri üzrə istifadə olunan pul vəsaitləri** | | **(43,890)** | **(21,157)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **(310)** | **(15,452)** |

**"TURANBANK" ASC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (DAVAMI)**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixinə başa çatmış il | 31 dekabr 2016-cı il tarixinə başa çatmış il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| Valyuta məzənnəsindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (2,975) | 17,998 |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 8 | 116,159 | 113,613 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 8 | **112,874** | **116,159** |

Pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti hesabatından çıxarılmış investisiya əməliyyatları üçün Qeyd 8-ə baxın.

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

30 aprel 2018-ci il

12-67-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.


TuranBank
...Bizimlə etibarlıdır